# Böyük Qayıdışın ilk addımları

*Ağalı kəndinin sakinləri olan 10 ailə 30 illik həsrətdən sonra öz doğma yurdlarına, evlərinə qayıdır*

**Böyük Qayıdışa - Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsinə başlanılır. Kəndin sakinləri olan 10 ailə 30 illik həsrətdən sonra öz doğma yurdlarına, evlərinə qayıdır. Ağalı kəndinə əhalinin köçürülməsi Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışın ilk addımlarıdır.**

Prezident İlham Əliyevin may ayında açılışını etdiyi, Zəngilan rayonunun Ağalı kəndində yaradılmış "Ağıllı kənd" sakinlərini qəbul etməyə tam hazırdır.

**(davamı 5-ci səhifədə)**



# Böyük Qayıdışın ilk addımları

(əvvəli 1-ci səhifədə)

*Ağalı kəndinin sakinləri olan 10 ailə 30 illik həsrətdən sonra öz doğma yurdlarına, evlərinə qayıdır*

Ağalı kəndi Qafqazda müasir standartlara cavab verən ilk kənd kimi tarixə düşüb. Qeyd olunur ki, kəndə birinci mərhələdə 41 ailə köçürülür. İlk olaraq köçürülən ailələr əsasən müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin hər birinin sakinləri var. Layihəyə əsasən, Ağalı kəndində məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu yaradılacaq. Bundan başqa, kəndin genişləndirilməsi və əlavə 150 evin, ikimərtəbəli və üçmərtəbəli mənzil tipli evlərin inşası nəzərdə tutulur. Yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Kəndin enerjiyə tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq. Bu yolla ölkəmiz daha geniş aspektdən alternativ enerjinin tətbiqini reallaşdıra biləcək. Bir sözlə, Ağalı kəndi "Ağıllı kənd" pilot layihəsi çərçivəsində yenidən qurulub. Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Burada "ağıllı tədris", "ağıllı səhiyyə" və "ağıllı kənd təsərrüfatı" sistemləri də həyata keçiriləcək. Ağalılılar "Ağıllı kənd" layihəsinin ilk dəfə onların ata-baba yurdunda həyata keçirilməsinə görə fərəh hissi keçirdiklərini və dövlətimizin başçısına minnətdar olduqlarını bildirirlər.

Mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kənd sakinləri ilə görüşüblər. Sakinlər qarşısında çıxış edən dövlətimizin başçısı Müstəqillik Günü ərəfəsində belə bir görüşün böyük rəmzi mənası olduğunu qeyd edərək, Ağalı kəndinin yenidən qurulması və belə müasir vəziyyətə gətirilməsinin məhz müstəqilliyimizin möhkəmlənməsinin bariz nümunəsi olduğunu diqqətə çatdırıb: "Bu gün hər bir Azərbaycan vətəndaşı və əminəm, hər bir insan görür ki, Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əsaslıdır və xalqımızın xoşbəxtliyi üçün əsas amildir". Çıxışında tarixi faktlara istinad edən Prezident İlham Əliyevin vurğuladığı kimi, ilk Xalq Cümhuriyyəti süquta uğrayandan cəmi bir neçə ay sonra 1920-ci ilin noyabrında sovet hakimiyyətinin qərarı ilə heç bir əsas olmadan tarixi diyarımız Qərbi Zəngəzur Azərbaycandan ayrıldı və Ermənistana verildi. Bu, xalqımıza qarşı növbəti düşmənçilik və ədalətsizlik idi. Çünki Zəngəzurun şərqində də, qərbində də Azərbaycan xalqı əsrlər boyu yaşamışdır və indiki Ermənistan ərazisində olan Qərbi Zəngəzurun bütün toponimləri, bütün kəndlərin milli tərkibi Azərbaycan xalqına məxsus idi. Sakinlərlə görüşdə dövlət başçısı Zəngilan şəhərinin Baş planı ilə tanış olduğunu deyib: "Hesab edirəm ki, ən gözəl variantı seçdik. Bu sahədə təcrübəsi olan beynəlxalq şirkət Baş planı təqdim etdi və mən dedim ki, Zəngilan şəhəri park şəhərinə çevrilməlidir... birinci pilot layihə məhz Zəngilanda icra edildi, Ağalı kəndində. Bir il bundan əvvəl inşaat işləri başlamışdır. İndi 200 evdən ibarət gözəl kənd salınıb - "Ağıllı kənd". Bu gün bu kəndlə tanış olarkən, - bilirsiniz, mən dəfələrlə burada olmuşam, - görürəm ki, doğrudan da böyük, necə deyərlər, mütərəqqi bir addım atmışıq". Dövlətimizin başçısı qeyd edib ki, işğaldan azad olunmuş torpaqlara insanların qayıdışı üçün müvafiq şərait olmalıdır. Artıq birinci layihə uğurla icra olunub, gələcək planlar da belədir. Birinci mərhələ üçün hər rayonda kəndlər seçilib ki, ilk növbədə orada işlər aparılacaq. Ondan sonra insanlar qayıtdıqca, bütün qalan yerlər də bərpa ediləcək.

Azərbaycanın müstəqil iqtisadiyyatının gücü hesabına Böyük Qayıdış prosesinə start verilib və ilk olaraq zəngilanlıların dogma torpaqlarına qayıdışı başlanır. Belə maliyyə tutumlu layihələrin icra edilməsi Azərbaycan dövlətinin öz vəsaiti hesabına həyata keçirilir. Əlbəttə bu cür layihələri güclü iqtisadiyyata malik olan ölkələr həyata keçirə bilər. Azərbaycanın güclü iqtisadiyyata malik olması da belə genişmiqyaslı işləri həyata keçirməyə imkan verir. Düşünülmüş siyasət Azərbaycanı bugünki uğurlara gətirib çıxarıb. Artıq yeni reallıqlar yaradan güclü Azərbaycan var ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyünü bərpa etdi və bu gün belə nəhəng layihələr həyata keçirərək azad edilmiş torpaqların çiçəklənən bir diyara çevrilməsi istiqamətində qətiyyətli və sürətli işlər aparılır. Bu gün dünyanın xoşbəxti yurda dönən Ağalı kəndinin sakinləridir. Qədəmləriniz axarlı və mübarək olsun.

**Mustafa KAMAL,**
**"Respublika".**